**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**019/270

**Bakı şəhəri** "05" may **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Əlcəzair Xalq Demokratik Respublikasının Batna (Batna), Umm El Buaqi (Oum El Bouaghi) əyalətlərində və Amerika Birləşmiş Ştatlarının Viskonsin (Wisconsin), Yuta (Utah), Oreqon (Oregon), Ohayo (Ohio), Alyaska (Alaska), Florida (Florida) ştatlarında qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan inzibati ərazi vahidlərində YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə YPQQ xəstəliyinin baş verməsinə görə Əlcəzair Xalq Demokratik Respublikasının və Amerika Birləşmiş Ştatlarının inzibati ərazi vahidlərinə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2021-ci il 19 aprel tarixli 025/120 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Batna və Umm El Buaqi əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Viskonsin ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2022-ci il 16 may tarixli 032/207 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Yuta ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2022-ci il 2 iyun tarixli 035/210 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Oreqon ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2022-ci il 13 sentyabr tarixli 052/227 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Ohayo ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2022-ci il 17 oktyabr tarixli 058/233 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Alyaska ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 2022-ci il 28 oktyabr tarixli 061/236 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Florida ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer